**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

Əlyazması hüququnda

**YUSİFZADƏ ŞƏHLA NATİQ QIZI**

# ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN DÖVLƏT TƏNZİMLƏNMƏSİ PROBLEMLƏRİ

**İxtisas:** 5308.01 - "Ümumi iqtisadiyyat"

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı - 2015**

Dissertasiya işi Azərbaycan Dövlət İqtisad Universitetinin "İnformasiya iqtisadiyyatı və texnologiyaları" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** *akademik*
**Əli Məmməd oğlu Abbasov**

**Rəsmi opponentlər:** *iqtisad elmləri doktoru, professor*
**Fizuli Əziz oğlu Məmmədov**

*iqtisad üzrə fəlsəfə doktoru*
**Emil Əhməd oğlu Hacıyev**

**Aparıcı təşkilat:** Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutu

Dissertasiyanın müdafiəsi 30 sentyabr 2015-ci il saat $14^{00}$ -da Azərbaycan Dövlət İqtisad Universitetinin D 02.051 dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Az 1001, Bakı şəhəri İstiqlaliyyət küçəsi 6, Azərbaycan Dövlət İqtisad Universitetinin dissertasiya şurası.

Dissertasiya işi ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat "___"______ 2015-ci ildə göndərilmişdir.

**Dissertasiya şurasının**
**elmi katibi, i.ü.f.d., dos. M.M.Sadıqov**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı**. Müasir dövrün xarakterik cəhətlərindən biri iqtisadi proseslərə münasibətdə dövlətin yeri və rolunda baş verən köklü keyfiyyət dəyişiklikləridir. Uzunmüddətli iqtisadi artım və makroiqtisadi sabitlik dövlət tənzimlənməsi sisteminin səmərəliliyindən birbaşa asılıdır. Bu problemin bazar iqtisadiyyatı şəraitində mühüm əhəmiyyət kəsb etməsi həm də onunla şərtlənir ki, real bazarın formalaşması, struktur yenidənqurma, rəqabət mühitinin təşəkkülü olmadan mümkün deyildir. Eyni zamanda, qeyd edilən aspektlər ölkənin ümummilli mənafeləri ilə əlaqədar olan problemlər kompleksinin həllində əsas mövqeyə malikdir. Bu baxımdan dövlətin milli iqtisadiyyatını, müstəqilliyini, sabitliyini və dayanıqlığını təmin edən, ona daim yenilənməyə və özünü təkmilləşdirməyə imkan verən şərt və amillər məcmusu kimi çıxış edən iqtisadi təhlükəsizliyin və onun tərkib hissələrindən biri olan ərzaq təhlükəsizliyinin tənzimlənməsinin səmərəliliyinin artırılması daima həlli vacib olan məsələlərdəndir. Belə ki,iqtisadi təhlükəsizlik sisteminin formalaşdırılması dövlət müstəqilliyinin əsas şərtlərindən biridir.

Qeyd etmək lazımdır ki, ərzaq təhlükəsizliyi bütövlükdə ölkənin iqtisadi təhlükəsizlik sistemində mühüm yer tutur. Eyni zamanda ərzaq təhlükəsizliyi kənd təsərrüfatının lazımi səviyyədə inkişaf etməsi ilə əlaqədardır. Sistemli yanaşma mövqeyindən çıxış etsək, iqtisadi inkişaf problemlərinin daima mövcudluğu, makroiqtisadi sabitliyin pozulma ehtimalı, əhalinin ərzaqla təchizatının xarici bazarlardan asılılığının ümummilli mənafelərə ziyan vura bilməsi ərzaq təhlükəsizliyinin təmin edilməsini eyni zamanda strateji əhəmiyyət kəsb edən problem olmasını önə çəkir.

Ərzaq təhlükəsizliyinə çoxsaylı amillər təsir edir. Bu zaman ilk növbədə daxili bazarda yerli istehsalın artırılması prioritet əhəmiyyət kəsb edirsə, əhalinin alıcılıq qabiliyyəti, bazarda qiymətlərin səviyyəsi, məhsulun keyfiyyəti nəzərə alınmalıdır. Əhalinin alıcılıq qabiliyyətinin aşağı, bazarda qiymətlərin yüksək olması ərzaq təhlükəsizliyinin təmin edilməsinə mənfi təsir göstərir.

Respublikada müstəqillik illərində "2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun

azaldılması və davamlı inkişaf üzrə", "2003-2005-ci illərdə Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafı üzrə", "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı" ((2004-2008), (2009-2013), (2014-2018)), "2008-2015-ci illərdə Azərbaycan Respublikasinda əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair "Dövlət Proqramlarının qəbul edilməsi ölkənin sosial-iqtisadi inkişafının sürətlənməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Azərbaycan Hökuməti Avropa Komissiyası Ərzaq Təhlükəsizliyi Proqramına qoşulmaq üçün 2000-ci ilin iyununda Memorandum imzalamışdır. Milli Ərzaq Təhlükəsizliyi Proqramı hazırlanmış və ölkə prezidenti Heydər Əliyev cənabları tərəfindən 2001-ci il 2 mart tarixli 640 saylı sərəncam ilə təsdiq edilmişdir.

Azərbaycan Ərzaq Təhlükəsizliyi Milli Proqramında əhalinin ərzaq təhlükəsizliyinin strategiyası müəyyən edilir, ona nail olmağın yolları göstərilir. Onun əsas iki istiqaməti müəyyənləşdirilmişdir: ərzaq təhlükəsizliyinin təmin edilməsi siyasəti; ərzaq məhsullarından səmərəli istifadə və ölkə əhalisinin sosial müdafiə siyasəti.

Göründüyü kimi, milli ərzaq təhlükəsizliyi özündə iqtisadi, sosial-siyasi aspektləri ehtiva etməklə milli suverenliyin başlıca amillərindən biri kimi çıxış edir. O, həmçinin sosial-iqtisadi inkişafın əsas şərtlərindən biri olmaqla, vətəndaş cəmiyyəti quruculuğunda mühüm rol oynayır. Dünyanın tanınmış elm mərkəzlərinin və nüfuzlu beynəlxalq təşkilatların qənaətinə görə bəşəriyyətin qarşısında duran ən mühüm problem kimi ərzaq təhlükəsizliyinin təminatında aparıcı amil rolunu, istisnasız olaraq dövlət və onun tənzimləmə alətləri oynamalıdır.

Qeyd olunanlar ərzaq təhlükəsizliyinin təmin edilməsində dövlət tənzimləməsinin prioritetlərinin əsaslandırılmasını və onların reallaşdırılması poblemlərinin aktuallığını şərtləndirir. Məhz bu baxımdan ərzaq təhlükəsizliyinin dövlət tənzimləməsi problemlərinə həsr olunmuş dissertasiya mövzusu aktual olub, praktiki əhəmiyyət kəsb edir.

**Problemin öyrənilmə səviyyəsi**. Ərzaq təhlükəsizliyi real bazarın mövcud olduğu bütün dövrlərdə aktual əhəmiyyət kəsb etmişdir. Lakin, bu problem XIX əsrin sonu XX əsrin əvvəllərində xüsusi ilə kəskinləşir. Əlalxüsus "alıcı" bazarının formalaşması (XX əsrin 60-cı illəri), inkişaf etmiş ölkələr tərəfindən aqrar proteksionizmin daha da gücləndirilməsi, demoqrafik "partlayış" və s.-nin nəticəsində ərzaq təhlükəsizliyi problemi

həm milli, həm də beynəlxalq səviyyədə qlobal inkişaf problemlərindən birinə çevrilmişdir. Haqqında söhbət gedən problemin qloballaşması və getdikcə daha kəskin xarakter alması, təbiidir ki, dünya alimləri, beynəlxalq təşkilatlar və dövlət orqanlarının haqlı narahatlığına səbəb olmuşdur.

Bu problemin nəzəri-praktiki müstəvidə araşdırılması baxımında "Roma Klubu", BMT-nin FAO (Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı), BMT-nin ixtisaslaşdırılmış digər qurumları xüsusilə fərqlənirlər. Görkəmli tədqiqatçılar: A.Larson, V.Lifert, P.Mendis, C.Anderson, İ.Evans, M.Kelli, F. Vatson, H.Yanq, Y.Tinbergen, Q.Mürdal, A.Peççei, D.Qrunveld, A. Kinq, O. Dreyer, B.Şnayder, J.Korbett, T.Çembers və başqaları tərəfindən problemin həlli variantları araşdırılmış və böyük elmi əhəmiyyət kəsb edən müddəalar irəli sürülmüşdür. MDB məkanında isə ərzaq təhlükəsizliyi problemi daha çox milli səviyyədə nəzərdən keçirilmişdir. Bu baxımdan A.Qataulin, Q. Svetlova, A.Bakirov, V.Qayduk, V.Dakuçaev, T.Dubova, V.Korotnev, M.Pavlenko, N.Tixonov, M.İdiqov, A.Şuşrin, K.Abulov, P.Semenov və digər tədqiqatçıların aqrar sferada apardıqları araşdırmalar böyük elmi-praktik əhəmiyyətə malikdir.

Ərzaq təhlükəsizliyi və onun problemləri Azərbaycanın tanınmış alimlərinin əsərlərində geniş tədqiq edilmişdir. Bu sırada A.A.Nadirov, Z.Ə. Səmədzadə, A.K.Ələsgərov, A.B.Abbasov, B.X.Ataşov, R.Ə. Balayev, İ.H.Alıyev, A.Ş.Şəkərəliyev, H.B.Allahverdiyev, F.Ə Məmmədov, E.Ə.Hacıyev, H.A.Xəlilov, Ə.B.Sarıyev və digər tədqiqatçılar mühüm əhəmiyyət kəsb edən elmi-tədqiqat işləri aparmışlar. Lakin, bu araşdırmaların əhəmiyyətini azaltmadan göstərmək lazımdır ki, bu tədqiqatlarda ərzaq təhlükəsizliyinin dövlət tənzimlənməsi problemlərinin həlli məqsəd kimi qarşıya qoyulmamışdır. Müasir dünyada milli ərzaq təhlükəsizliyinin artan əhəmiyyəti şəraitində onun təmin edilməsinin dövlət tənzimlənməsi problemlərinin bir çox mühüm aspektlərdə, qarşılıqlı əlaqəli araşdırılmasına ciddi ehtiyac qalmaqdadır.

**Dissertasiyanın məqsədi** müasir qloballaşma şəraitində əhalinin ərzaqla təchizatının müasir vəziyyətinin kompleks araşdırılması, ərzaq təhlükəsizliyi sisteminin elmi əsaslarla inkişaf etdirilməsi istiqamətlərinin müəyyən edilməsi, onun dövlət tənzimlənməsi problemlərinin həlli və səmərəliliyinin yüksəldilməsi üçün təklif və tövsiyələrin işlənib hazırlanmasından ibarətdir.

Bununla əlaqədar olaraq aşağıdakı vəzifələr müəyyən edilmişdir:

- iqtisadi təhlükəsizliyin konseptual əsaslarının və ərzaq təhlükəsizliyi probleminin nəzəri baxışlarının araşdırılması;
- ərzaq təhlükəsizliyinin qlobal aspektlərinin tədqiqi;
- Azərbaycanda ərzaq təhlükəsizliyi sisteminin formalaşdırılması istiqamətləri və amillərinin təhlili;
- ölkənin ərzaq sektorunda özünütəminetmə vəziyyətinin təhlili;
- ərzaq bazarının xarici asılılığının araşdırılması və dövlətin aqrar siyasətinin ərzaq təhlükəsizliyinə təsirinin qiymətləndirilməsi;
- gəlirlər və qiymətlərin ərzaq təhlükəsizliyinə təsirinin tədqiqi;
- ərzaq təhlükəsizliyinin dövlət tənzimlənməsinin təkmilləşdirilməsi istiqmətlərinin müəyyənləşdirilməsi;
- ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı aqrar sahədə iqtisadi proqnozlaşdırmanın aparılması.

**Tədqiqatın obyektini** ölkə iqtisadiyyatının ərzaq sektoru və onunla qarşılıqlı əlaqədə olan sferalar təşkil edir.

**Tədqiqatın predmeti** ərzaq təhlükəsizliyinin dövlət tənzimlənməsi məsələləri və bu məsələlərin həlli üçün istifadə edilən iqtisadi metod və vasitələr təşkil edir.

**Dissertasiya işinin nəzəri-metodoloji əsasını** neoklassik iqtisadi nəzəriyyə, müasir iqtisadi konsepsiyalar, əmtəə tədavülü, ərzaq təhlükəsizliyi, aqrar iqtisadiyyat, əhali gəlirləri və s. əhatə edən praktiki tədqiqatlar, Azərbaycan Respublikasının Prezidentinin sərəncam və fərmanları, Azərbaycan Respublikasının qanunları və digər normativ-hüquqi aktları təşkil edir.

Tədqiqat işinin yazılmasında dialektik metod, statistik, iqtisadi-riyazi modelləşdirmə, müqayisəli təhlil, tarixi, məntiqi və s. metodlardan istifadə olunmuşdur.

Dissertasiya işinin yerinə yetirilməsində Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin, Azərbaycan Respublikası İqtisadi İnkişaf və Sənaye Nazirliyinin, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin, eləcə də beynəlxalq təşkilatların - BMT və onun ixtisaslaşdırılmış qurumlarının tövsiyələrindən, informasiya məlumatlarından, həmçinin internet resurslarından istifadə olunmuşdur.

**Dissertasiyanın elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

- iqtisadi təhlükəsizliyin nəzəri-konseptual baxışları məntiqi ardıcıl-

lıqla araşdırılmış və iqtisadi qloballaşma mövqeyindən müəllif münasibəti bildirilmişdır;

- ərzaq təhlükəsizliyi probleminə nəzəri müddəalar müqayisəli qiymətləndirilərək ümumiləşdirilmişdir;
- Azərbaycanda ərzaq təhlükəsizliyinin dövlət tənzimlənməsi kompleks tədqiq olunmuşdur;
- ərzaq bazarının səmərəli fəaliyyətinin formalaşdırılması yolları göstərilmişdir;
- ərzaq malları üzrə özünütəminetmə səviyyəsinin yüksəldilməsi yolları verilmişdir;
- aqrar və sosial siyasətin ərzaq təhlükəsizliyinə, gəlir və qiymətlərin ərzaq təchizatına təsiri qiymətləndirilmişdir;
- aqrar siyasət və ərzaq təhlükəsizliyinin təmin olunmasının perspektivləri verilmişdir;
- kənd təsərrüfatı sahəsində bir çox ərzaq məhsulları üzrə proqnozlar verilmiş və ümumi inkişaf meylləri göstərilmişdir.

**Dissertasiya işinin nəzəri və praktiki əhəmiyyəti.**

Dissertasiyanın məzmunu və nəzəri nəticələri tədqiq olunan problemin nəzəri anlama sərhədlərini genişləndirmək, ərzaq təhlükəsizliyi probleminin özünün və onun dövlət tənzimlənməsi zamanı qarşıya çıxan bir çox məsələlərin həll edilməsi yolları barədə elmi təsəvvürləri dərinləşdirmək imkanı verir.

Dissertasiya tədqiqatı zamanı əldə edilmiş müddəa, nəticə, irəli sürülən təklif və tövsiyələr ərzaq təhlükəsizliyinin dövlət tənzimlənməsinin təkmilləşdirilməsinin nəzəri bazası kimi çıxış edə bilər, ölkənin ərzaq sektorunda mövcud olan problemlərin əhəmiyyətli dərəcədə aradan qaldırılmasına, ərzaq təhlükəsizliyi sisteminin səmərəli fəaliyyət göstərməsinə imkan verər. Bununla bərabər dissertasiyanın materialları ADİU-nun tədris prosesində "İqtisadiyyatın dövlət tənzimlənməsi" və "Aqrar sferanın iqtisadiyyatı", "Dünya ərzaq təhlükəsizliyi" fənləri üzrə tədris prosesində, bu tədris kursları proqramlarının təkmilləşdirilməsi zamanı istifadə edilə bilər.

Dissertasiyanın praktiki əhəmiyyəti olduqca vacib bir məsələnin – ərzaq təhlükəsizliyinin təmin edilməsi məsələsinin həllinə istiqamətlənməsi ilə müəyyənləşdirilir. İşdəki materiallar dövlət orqanlarının və qeyri-hökumət təşkilatlarının fəaliyyətində, aqrar sahənin inkişafını, ərzaq təhlükəsizli-

yini və əhalinin ərzaq məhsullari ilə etibarli təminatı əhatə edəcək qanunvericilik aktlarının və konstruktiv tədbirlərin hazırlanması, ərzaq bazarının tənzimlənməsi və proqnozlaşdırılması zamanı istifadə edilə bilər.

**İşin aprobasiyası və nəticələrinin tətbiqi.**

Tədqiqatın əsas müddəa və nəticələri müəllifin məruzə ilə çıxış etdiyi və açıq mətbuatda nəşr olunduğu beynəlxalq və respublika səviyyəli elmi konfranslarda məruzə edilmiş, dinlənilmiş, müzakirə edilmiş və müsbət rəy qazanmış, müxtəlif elmi jurnallarda nəşr olunmuşdur, o cümlədən: Aspirantların və gənc tədqiqatçıların IX respublika elmi konfransın tezisləri, Bakı, 2003; "Актуальные вопросы современной науки", Материалы XI Международной научно-практической конференции, Москва, 2011; "Техника и технология пищевых производств", Материалы VIII международной научно-техческой конференции, Могилев, 2011; "Ərzaq təhlükəsizliyinin təmin edilməsinin sosial-iqtisadi problemləri" mövzusunda beynəlxalq elmi-praktiki konfransın material və tezisləri, Bakı 2011, Azərbaycan Dövlət Aqrar Universitetinin 85 illiyinə həsr edilmiş "Müasir aqrar elm: Qloballaşma şəraitində əsrin aktual problemləri və inkişaf perspektivləri" adlı Beynəlxalq Elmi-Praktik Konfransın materialları, Gəncə, 2014; Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 92-ci il dönümünə həsr edilmiş Gənc Tədqiqatçıların Beynəlxalq Elmi Konfransın materialları Bakı 2015, 81 Международная научная конференция молодых учёных, аспирантов и студентов, Киев 2015.

Dissertasiya işinin əsas müddəa, nəticə və tövsiyələri ümumi həcmi 4,3 çap vərəqi olan 15 sayda elmi nəşrlərdə əks etdirilmişdir.

Tədqiqatın əsas nəticələri və təklifləri Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu tərəfindən istifadə olunmaq üçün qəbul edilmişdir (33/33-7/07 saylı 6 aprel 2012-ci il tarixli arayış).

**Dissertasiyanın həcmi və strukturu.** Dissertasiya giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarət olmaqla 176 səhifədən ibarətdir.

MÜNDƏRİCAT

GİRİŞ
I FƏSİL ƏRZAQ TƏHLÜKƏSİZLİYİ SİSTEMİNİN NƏZƏRİ – METODOLOJİ ƏSASLARI
1.1. İqtisadi təhlükəsizliyin ərzaq təhlükəsizliyi baxımından mahiyyəti, məzmunu və spesifik xüsusiyyətləri
1.2. Ərzaq təhlükəsizliyi probleminə nəzəri baxışların müqayisəli təhlili
1.3. Ərzaq təhlükəsizliyinin qlobal aspektlərinin tədqiqi
II FƏSİL AZƏRBAYCANDA ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN KOMPLEKS TƏDQİQİ
2.1. Ərzaq təhlükəsizliyi sisteminin formalaşdırılması amillərinin qiymətləndirilməsi
2.2. Ölkənin ərzaq sektorunda özünütəminetmə vəziyyətinin təhlili
2.3. Müasir qloballaşma şəraitində ərzaq təhlükəsizliyinin dövlət tənzimlənməsində xarici ticarət əlaqələrinin yeri və rolu
III FƏSİL ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ
3.1. Dövlətin aqrar siyasəti və ərzaq təhlükəsizliyinin təmin olunması perspektivləri
3.2. Əhali gəlirləri və qiymətlərin ərzaq təhlükəsizliyinə təsiri problemlərinin həlli yolları
3.3. Ərzaq təhlükəsizliyi və kənd təsərrüfatı inkişafının proqnozlaşdırılması
Nəticə və təkliflər
Ədəbiyyat siyahısı
Əlavələr

## Dissertasiyanın əsas müddəaları

**1. İqtisadi təhlükəsizliyin mahiyyəti, məzmunu və ərzaq təhlükəsizliyi probleminə nəzəri baxışların müqayisəli təhlili**

Ölkənin davamlı iqtisadi inkişafını təmin etmək, beynəlxalq əmək bölgüsü sistemində layiqli yer tutmaq, dünya iqtisadiyyatına səmərəli inteqrasiya ümummilli mənafelər nəzərə alınmaqla ölkənin iqtisadi təhlükə-

sizliyinin təmin olunmasına şərait yaradır. İqtisadi təhlükəsizlik strategiyası iqtisadi mənafelərin təmin edilməsinə səmərəli təsir göstərir.

Digər tərəfdən, iqtisadi təhlükəsizlik anlayışı bəzi hallarda ölkənin iqtisadi müstəqilliyi kimi başa düşülür və nəticədə mənafelər sisteminin düzgün formalaşdırılması prosesi müəyyən anlaşılmazlıqlara səbəb olur. Əslində bu anlayışlar arasında birbaşa əlaqə yoxdur, yaxud iqtisadi asılılıq hələ öz-özlüyündə iqtisadi təhlükəsizliyin yoxluğu anlamına gəlmir. Əvvəla, ona görə ki, müasir qloballaşma prosesindən kənarda durmaq, özünü təcrid etmək mümkünsüzdür. İkincisi, iqtisadi asılılıq inkişaf səviyyəsindən asılı olmayaraq əksər ölkələr üçün real məzmun kəsb edir. Üçüncüsü, əgər iqtisadi asılılıq deyilən anlamda qəbul edilərsə, onda əksər inkişaf etməkdə olan və iqtisadi cəhətdən geri qalan ölkələri dövlət müstəqilliyini itirməlidirlər və s.

İqtisadi təhlükəsizlik probleminin mahiyyəti əksər fəaliyyət sferalarını, sistemdaxili inteqrativ bağlılığı, inkişafı və onun dayanıqlılığını özündə ehtiva edən kompleks anlayışdır. Bütün bunların nəzərə alınması baxımından, həmin problemin mahiyyətinə müasir yanaşmanın məzmununu olduğu kimi qəbul etmək olar. İqtisadi təhlükəsizliyin mahiyyətini iqtisadiyyatın və hakimiyyət institutlarının elə bir vəziyyəti kimi xarakterizə etmək olar ki, bu halda milli mənafelərin ödənilməsinin, siyasətin sosial yönümlülüyünü, daxili və xarici proseslərin hətta əlverişli olmadığı şəraitdə də ölkənin təhdidlərdən müdafiə olunma potensialının təminatı aspektində başa düşmək lazımdır.

Milli mənafelərə yanaşmada konkret tarixi dövrün spesifikasını nəzərə almaqla prioritetlərin düzgün seçimi mühüm əhəmiyyət kəsb edir. İqtisadi təhlükəsizlik problemini kəskinləşdirən əsas məsələ iqtisadi asılılığın mümkün sərhədlərinin müəyyənləşdirilməsidir. İqtisadi asılılıq milli mənafelərin təminatına mənfi təsir göstərir. Bazar iqtisadiyyatına yeni qədəm qoymuş ölkələr üçün bu hal xüsusi əhəmiyyət kəsb edir. Eyni zamanda, müasir qloballaşmanın doğurduğu problemlər nəzərə alınmaqla qeyd edilən məsələni birmənalı qiymətləndirmək olmaz. Fikrimizcə, iqtisadi asılılıq probleminə yanaşmada başlıca məsələ tənlükəsizlik sərhədlərinin müəyyənləşdirilməsi və ölkənin xaricdən asılılığını minimuma endirməkdir.

Müasir situasiyanın sürətlə dəyişən xarakteri və dinamizmi ərzaq

təhlükəsizliyi problemini daha geniş spektrdə qoymağı tələb edir. Ərzaq təhlükəsizliyi ümummilli təhlükəsizlik probleminin ayrılmaz tərkib hissəsi kimi XXI əsrin prioritet məsələlərindən birinə çevrilmişdir. Bütün dünyada bu problemin qlobal və ölkə miqyasında həlli ərzaq məhsulları ilə özünün təmin edilməsi səviyyəsinin artırılması və beləliklə, onun aqrar sektorun inkişaf etdirilməsinin daxili və xarici amillərinin təsirinin optimallaşdırılmasını özündə təcəssüm etdirir.

Ərzaq təhlükəsizliyinə nail olmanın əsas meyarı sırasına eyni zamanda şəhərin, regionun, ölkənin və s. ərzaq məhsulları ilə özünü təchizatı səviyyəsinin diferensiasiyası da aid edilir. Onun mahiyyəti dövlətin öz əhalisinin ərzaq məhsullarına olan ehtiyaclarının ödənilməsinə yönəldilmiş məqsədyönlü və kompleks səciyyə daşıyan tədbirləri özündə ehtiva edir. Bununla yanaşı ərzaqın həcmi, miqdarı və çeşidləri, keyfiyyəti fərdin sosial inkişaf və normal fiziki fəaliyyəti üçün kifayət qədər olmalıdır. Nəticə olaraq bu proses öz-özlüyündə əhalinin geniş təkrar istehsalda iştirakını təmin edir, millətin sağlam genotipini formalaşdırır və nəhayət, cəmiyyətin demoqrafik inkişafına geniş imkanlar açır.

Ərzaq təhlükəsizliyi sosial siyasətin tərkibinə daxil olan bir sıra amillər toplusundan asılıdır. 1968-ci ildə əsası qoyulmuş "Roma Klubu" nun dəstəyi ilə "Ölkərin ərzaq təhlükəsizliyi: müasir vəziyyət və perspektiv hədəflər" mövzusunda holland iqtisadçısı D. Qrunveldin irəli sürdüyü fikirlər məhz bu amillər toplusunun dövrü tərəddüdləri əsasında "Əzaq məhsullarının yenidən bölüşdurulməsinin fiziki texnologiyası" nəzəriyyəsinin hazırlanmasında istifadə edilmişdir. Bu nəzəriyyə "Roma Klub"unun yaradıcısı və onun rəhbəri Aurelio Peççeinin "İnsani keyfiyyətlər" kitabında öz əksini tapmış "Bəşəriyyətin əsas məqsədləri" sistemində əks olunan amillər toplusunu müasir modifikasiyalı müstəvidə formalaşdırmışdır.

Ərzaq təhlükəsizliyinin nəzəri-konseptual əsaslarını araşdıran mütəxəssislərin fikrincə, ərzaq təhlükəsizliyi sosial siyasət sferasında öz əhatə dairəsini formalaşdıran bir sıra amillər toplusundan bir başa asılıdır.

## 2. Ərzaq təhlükəsizliyinin qlobal aspektlərinin tədqiqi

Qlobal problemlər ictimai təkrar istehsalın strukturuna və icra mexanizminə əsaslı təsir göstərir, təkrar istehsalın yeni ekoloji – iqtisadi mənzərəsini yaradır, işçi qüvvəsinin təkrar istehsalının bioloji, sosial aspektlərinə

də təsir edir.

Bu problemlərdən biri yoxsulluğun, aclığın, xəstəliklərin, işsizliyin, savadsızlığın ləğv edilməsidir ki, bunlar müasir dünyanın böyük hissəsini əhatə edir.

Əhalinin adambaşına düşən ÜDM–in təhlili göstərir ki, yoxsullarla həddən çox yoxsullar arasında iqtisadi fərqlər kəskin sürətdə artır. Eyni zamanda inkişaf etmiş ölkələrlə inkişaf etməkdə olan ölkələr arasında ziddiyyət yaranır. Dünya iqtisadiyyatının yenidənqurulması o vaxt real olar ki, kasıb ölkələr dünya iqtisadiyyatının bərabər hüquqlu üzvlərinə çevrilsinlər.

Beynəlxalq münasibətlərdə ərzaq təhlükəsizliyinə xüsusi əhəmiyyət verilir. Bu problem ayrı-ayrı adamların, sosial qrupların, cəmiyyətin və bütövlükdə bəşəriyyətin maraqlarına toxunur. Son illər ərzaq problemləri dramatik xarakter daşıyır. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) məlumatlarına görə, dünyada aclıq çəkənlərin sayı 500 mln nəfər təşkil edir. Bunların təxminən 20 mln nəfəri xəstəlikdən və ölümdən qurtara bilmirlər.

Hazırda inkişaf etmiş ölkələrdə də aclığın müxtəlif formaları müşahidə olunur. Bu onunla izah edilir ki, ənənəvi rasionlar lazımi kalorini təmin edir, lakin insan orqanizmi üçün tələb olunan minimum səviyyədə zülallar, yağlar və mikroelementlər çatışmır.

Demək olar ki, aclıq və tam qidalanmamaq insan cəmiyyətinin yarandığı ilk vaxtlardan müasir dövrə qədər mövcud olmuşdur. Uzun illər bunu şərtləndirən əsas amil kənd təsərrüfatının lazımi səviyyədə inkişaf etməməsidir. Lakin məhsuldar qüvvələr, o cümlədən kənd təsərrüfatının müasir inkişaf səviyyəsində planetdə yaşayan insanlardan bir neçə dəfə çox adamları ərzaq məhsulları ilə təmin etmək imkanları vardır. Belə ki, ingilis ekspertlərinin hesablamalarına görə, torpağın müasir əkin səviyyəsində dünyada 10 milyard əhalini ərzaqla təmin etmək olar. Belə qənaətə gəlmək olar ki, bəşəriyyət əkilən torpaqlardan qeyri-məhsuldar istifadə edir. 149 mln kv. km-i torpaq səhəsnin 11%-ni əkin sahələri və bağlar; 23%-ni otlaqlar və çəmənliklər; 30%-ni meşələr; 2%-ni şəhərlər, sənaye obyektləri, nəqliyyat magistralları və s. təşkil edir. 34% torpaq sahəsi isə istifadə üçün yararsızdır.

Müasir dövrdə ərzaq problemi qlobal miqyas və xarakter daşıyır.

Onun həlli planetdə istehsal resurslarının səmərəli bölgüsünün perspektivləri ilə əlaqədardır. XX əsrdə kənd təsərrüfatında məhsuldar qüvvələrin inkişafı nəticəsində keyfiyyət dəyişiklikləri, biotexnoloji inkişaf baş verdi, aqrar sənaye inteqrasiyası geniş inkişaf etməyə başladı. Sivilizasiyanın bütün bu nailiyyətlərinin istifadə edilməsi ərzaq məhsulları istehsalının artırılmasına geniş imkanlar yaradır.

Dünya ərzaq təhlükəsizliyi mahiyyət etibarı ilə artan ehtiyacların və tələbatların ödənilməsi üçün zəruri həcmdə ərzaq malları istehsalını özündə əks etdirir. Bu şəraitdə beynəlxalq ticarət nisbi sabit qiymətləri elə bir səviyyədə olmalıdır ki, dünya ölkələri öz ehtiyaclarını idxal hesabına ödəsin və ya bu prosesi tarazlaya bilsinlər.

Qeyd olunan məsələ ilə bağlı beynəlxalq tədbirlərdən biri də 1992-ci ildə Rio-de-Janeyrada keçirilmiş BMT-nin Ətraf mühit və inkişaf üzrə konfransıdır. Dünyanın ən qabaqcıl 1600 alim və mütəxəssisləri (o cümlədən, 102 Nobel mükafatı laureatı) elmi təhlillər, hesablamalar aparmış, ərzaq probleminin güclü sosial siyasi mahiyyətə malik olmasını göstərmişlər. Hazırlanan sənədlərdə əsas ərzaq növü olan taxılın əkin sahəsinin azalması kimi problemlər ön plana çəkilmişdir. Belə ki, 1980-ci illərdə taxıl əkini sahələri 735 mln. hektar olduğu halda, 2003-cü ildə 666 mln. hektar təşkil etmişdir (69 mln. hektar azalaraq 1960-cı illərin səviyyəsinə enmişdir).

Dünya birliyi ümid edir ki, hər bir insanın ilkin ehtiyaclarının ödənilməsinə nail olmaq mümkün olacaqdır. Müəyyən bir vaxtlar bu məramın yerinə yetirilməsi xülya kimi görünsə də, indi bu problemlərin həllinə maliyyə qaynaqları tapmaq mümkündür. Sosial məsələlərin həlli istiqamətində təşkil edilən beynəlxalq səviyyəli müzakirələr, konfranslar, sammit və simpoziumlar bu məsələnin nə qədər aktual olduğunu göstərir.

Beləliklə, dünya ərzaq təhlükəsizliyi bütövlükdə humanitar inkişafın əsas dəyərləri arasında xüsusi yer tutur və bəşəriyyətin əsas problemlərindən biri kimi xarakterizə olunur.

## 3.Azərbaycanda ərzaq təhlükəsizliyi sistemi və özünütəminetmə səviyyəsinin təhlili

Müasir dövrdə ölkənin ərzaq təhlükəsizliyi özündə sosial-iqtisadi, siyasi amilləri birləşdirir. Onun əsasında mürəkkəb və çətin məsələlərdən

biri də ölkəninin özünü ərzaqla dayanıqlı təmin etməsi məsələsi durur. Bu problemi SSRİ-nin dağılması dövründə ənənəvi təsərrüfat əlaqələrinin pozulması daha da kəskinləşdirmişdir. Müstəqilliyimizin ilk illəri, xüsusən 1991-1993-cü illərdə səmərəsiz həyata keçirilən iqtisadi islahatlar nəticəsində ölkənin ərzaqla təminatı əhəmiyyətli dərəcədə xaricdən gətirilən məhsullardan asılı vəziyyətə düşmüş, iqtisadi inkişaf sistemsizlik və özbaşınalıqlarla əhatələnmişdir. Ərzaq probleminin həlli, idxalın ön plana çıxarılması ölkə iqtisadiyyatına ciddi ziyan vurmaqla, kənd təsərrüfatının əsas sahələrində istehsalın kəskin azalmasına və nəticədə ölkə əhalisinin əksəriyyətinin yoxsullaşmasına, beləliklə, təsərrüfat sisteminin deqradasiyasına səbəb olmuşdur.

Ərzaq təhlükəsizliyi sisteminin formalaşdırılması amillərinin qiymətləndirilməsi zamanı ərzaqla təminat haqda onu söyləmək olar ki, ərzaqla təminatın 1/3-nin idxaldan asılılığı keçid iqtisadiyyatı şəraitində sərt və kor-koranə tədbirlərin və ümumiqtisadi fəaliyyətin mənfi ünsürlərinin iqtisadiyyatın aqrar sferasına kəskin təsiri nəticəsində formalaşan süstlüyü müşahidə etməyə imkan vermişdir. Bununla yanaşı, ASK məhsullarının istehsalında dərin tənəzzülün formalaşması ilk növbədə ölkədə mövcud sosial-iqtisadi vəziyyətlə deyil, texnoloji səviyyənin aşağı olması, nəticədə isə səmərəliliyin aşağı düşməsi, digər tərəfdən isə ərzaq məhsullarının əsas alıcıları olan əhalinin "aşağı" və "orta" təbəqələrinin alıcılıq qabiliyyətinin aşağı düşməsi ilə izah oluna bilər. Bir faktı göstərmək lazımdır ki, 2000-ci ildə ASK-nin müəssisə və təşkilatlarının 52,5 %-i zərələ işləyirdirsə, 2013-ci ildə bu göstərici 4,4 %-ə enmişdir.

Ölkənin ərzaq təhlükəsizliyinin səviyyəsinin yüksəldilməsinin əsas problemi ASK məhsullarının istehsal artımının təmin edilməsi ilə əlaqədar kompleks tədbirləri özündə ehtiva edir:

– ASK müəssisələrinin və uyğun sahələrin daxili imkanlarından istifadə edərək, iqtisadiyyatın aqrar sferasına dövlət dəstəyi ilə "uyğunlaşdırılmış" tədbirlərin üzvi birliyinin həyata keçirilməsi;

– idxalı əvəzedən siyasətin tətbiq edilməsi və onun ümummilli iqtisadi inkişaf modeli ilə əlaqələndirilməsi;

Milli iqtisadiyyatın acıqlılığının və onun dünya təsərrüfatına inteqrasiya prosesinin müsbət və mənfi təsirləri vardır. Məlumdur ki, hətta dünyanın yüksək səviyyədə inkişaf etmiş ölkələri öz tələbatlarını yerli

imkanlar hesabına tam ödəyə bilmirlər. Əsrlər boyu xalqlar beynəlxalq əmək bölgüsündə aktiv iştirak etməklə, milli iqtisadiyyatın inkişafında böyük nailiyyətlər əldə etmişlər.

Təhlil göstərir ki, ərzaq məhsulları idxalının çox olması ölkənin ərzaq və eləcə də iqtisadi təhlükəsizliyinə təhdidlər yaradır. Ölkənin idxaldan asılılığını müəyyən etmək idxalın həcmi və ərzaq məhsullarının istehlakı göstəricidən istifadə edilir. Bunlar arasında nisbət ərzaq təhlükəsizliyi haqqında tam məlumat verir.

Ərzaq təhlükəsizliyinin təmin edilməsi hər bir ölkədə ərzaq məhsullarının istehsalı üçün obyektiv şəraitin olmasını tələb edir. Ölkədə istehsal üçün əlverişli şəraiti olan məhsullar üzrə xarici bazarlardan strateji asılılığın aradan qaldırılması şərti əsas götürülməklə, aparılan hesablamalar Azərbaycan Respublikasında ərzaqla özünütəminetmə həddinin 80%-ə yaxın olduğunu göstərir. Həmin göstərici ərzaq təhlükəsizliyinin təmin edilməsində kritik sədd kimi beynəlxalq praktikada istifadə edilən ümumi göstəricidən (70%) xeyli yüksəkdir. Bu, Azərbaycanın ərzaq kompleksinin strukturunun xüsusiyyətlərini və ölkənin əsas ərzaq məhsulları istehsalı sahəsində əlverişli şəraitə malik olmasını göstərir.

Azərbaycan müstəqillik qazandıqdan sonra ərzaq təhlükəsizliyi üçün əsas ərzaq məhsulları ilə özünütəminetmə önəmliyi yüksəlmişdir. SSRİ dövründə Azərbaycanda ərzaq təminatı ümumittifaq əmək bölgüsü sistemində həyata keçirilirdi. Bu sistemin daxilində ayrı-ayrı respublikaların təsərrüfatları müəyyən məhsul növləri üzrə ixtisaslaşdırılmışdır. Azərbaycanın kənd təsərrüfatında belə ixtisaslaşdırma dərin olduğu üçün respublikanın əsas ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsi yüksək deyildir. Bununla əlaqədar ölkəmiz dövlət müstəqilliyinə ərzaq təhlükəsizliyi qeyd edilən cəhətdən pozulmuş vəziyyətdə qədəm qoymuşdur. Rəsmi statistik məlumatlar əsasında ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsini 1994-cü ildən başlayaraq müəyyənləşdirmək mümkün olmuşdur.

Azərbaycanda uğurla aparılan sosial-iqtisadi siyasətin, o cümlədən aqrar siyasətin nəticəsi kimi yeyinti məhsulları və diri heyvanların idxalı 2013-cü ildə 1996-ci illə müqayisədə 3,1 dəfə, 2000-ci illə müqayisədə 5,6 dəfə, 2005-ci illə müqayisədə 3,5 dəfə, 2010-ci illə müqayisədə isə 1,2 dəfə artmış, xüsusi çəkisi bu dövrlərdə müvafiq olaraq 35,7 %; 16,2%; 7,3%; 13,1%; 9,9% təşkil etmişdir. Tərəddüdlərin bu şəkil alması

bilavasitə əhalinin maddi və sosial rifahının yüksəlməsilə, daha keyfiyyətli həyat tərzinə keçid meylinin artması ilə bağlıdır.

Təhlil əsasında müəyyən olunmuşdur ki, unla özünütəminetmə səviyyəsi 93,8%, şirniyyat məmulatları ilə 19,3%, makaronla 52,6%, meyvə və tərəvəz şirələri ilə 115,5 %, meyvə və tərəvəz konservləri ilə 91,1 %, süd və qaymaqla 95,6%, kərə yağı ilə 50,5 %, pendirə 80,6 %, qatıq və qaymaq məhsulları ilə 93,7%, şəkərlə 176%, çayla 54,7%, mineral və qazlı sularla 92,1% təşkil edir. Təminetmə səviyyəsi bitki yağları ilə 47,3%, şəkər istehsalı üçün xammalla 45,5%, duz istehsalı 80,2% təşkil edir. Lakin göstərmək lazımdır ki, özünütəminetmə səviyyəsi aşağı olan məhsulların artırılması üçün böyük potensial vardır. Əsas heyvandarlıq məhsulları ilə özünütəminetmə səviyyəsi qəbul edilmiş normadan (86-97%) yüksəkdir. Quş əti və ət məhsulları ilə özünütəminetmə səviyyəsi (96,2%) normaya yaxın, yalnız donuz əti və ət məhsulları ilə özünütəminetmə səviyyəsi (36,6%) normaya nisbətən 4 dəfə aşağıdır. Bu əsasən əhalinin milli adət ənənələri ilə və bu məhsulun istehlakdakı yüksək xüsusi çəkiyə malik olmaması ilə əlaqədardır.

2007-2013-cü illər ərzində bitkiçilik və əsas növ sənaye məhsulları ilə təminatda idxaldan asılılıq səviyyəsi xeyli azalmışdır. Belə ki, dənli bitkilərlə xarici ticarətdən asılılıq səviyyəsi 36,1%, paxlalılar 25,5%, kartof 7,7%, bütün növ tərəvəz 3,1%, bostan məhsulları üzrə xarici ticarətdən asılı deyildir, meyvə və giləmeyvə 4,9%, üzüm 5,8 % təşkil edir. Bu onu göstərir ki, bitki məhsulları ilə təminat xarici ticarətdən bilavasitə asılı deyildir. Əksər heyvandarlıq məhsulları ilə xarici ticarətdən asılılıq səviyyəsi yüksək deyildir. Donuz əti və ət məhsulları üzrə xarici ticarətdən asılılıq səviyyəsi (64,2%) quş əti və ət məhsulları (3,8%), balıq və balıq məhsulları (28,5 %) yüksəkdir.

Əhalinin qida rasionunda yağların təqribən 30%-i bitki mənşəli yağlar təşkil edir, səmərəli istehlak normalarına müvafiq olaraq ərzağın strukturunda heyvan yağları 75-80%, bitki yağları ilə 20-25% təşkil etmişdir. Məlum olduğu kimi, əhalinin istehlak etdiyi ərzaq məhsullarının tərkibində qida məhsullarının nisbətləri normativ göstəricilərdən müəyyən dərəcədə fərqlənir. Qida rasionunda zülalla müqayisədə yağların miqdarı aşağıdır, zülal və yağlara nisbətən karbohidratların miqdarı bir qədər yüksəkdir, yəni əhalinin istehlak etdiyi ərzaq məhsullarında qidalı

maddələrin nisbəti bu sahədə zəruri tələblərə uyğun deyildir. Digər mühüm cəhət qida rasionunda qidalı maddələrin nisbətində əlverişli dinamikanın olmamasıdır.

2001-2013-cü illər üzrə ev təsərrüfatlarında sutkada adambaşına istehlak olunmuş ərzaq məhsullarının kimyəvi tərkibi və kaloriliyi orta hesabla zülallar 1,26 dəfə, heyvan mənşəli zülallar 1,69 dəfə, yağlar 1,77 dəfə, heyvan mənşəli yağlar 1,63 dəfə, karbohidratlar 1,15 dəfə, heyvan mənşəli karbohidratlar 1,71 dəfə, qidanın kaloriliyi 1,31 dəfə, heyvan mənşəli kaloriliyi 1,67 dəfə artmışdır.

Beləliklə, müasir dövrdə Azərbaycanda əhalinin ərzaqla təmin olunması, enerjiyə tələbatının tam ödənilməsi, insanların yüksək dərəcədə aktiv və sağlam həyat yaşamanın etibarlı təmin etmək üçün istehlak olunan ərzaq məhsullarının kalorilik səviyyəsi artırılmalı və strukturu təkmilləşdirilməlidir.

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının hesablamalarına görə (ərazidən asılı olaraq) bu göstəricinin 1760-1836 kkalori arasında olması kifayət qədər qida maddələri qəbul edə bilməməyi, aclığı göstərir.

Azərbaycanda bu göstərici 2001-ci ildə 2221,0 kkaloridən 2013-cü ildə 2905,5-ə qədər artmışdır. Qeyd edilən artım 2001-2013-cü illər üzrə ərzaq məhsullarının adambaşına istehlakının dinamikasına uyğundur.

Cədvəl 1

2001-2013-cü illər üzrə ərzaq məhsullarının adambaşına istehlakı, ildə kq.

| | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Çörək və çörək məhsulları | 141,2 | 151,3 | 157,6 | 155,7 | 156,5 | 157,9 | 158,9 | 156,8 | 155,7 | 153,4 | 147,7 | 144,3 | 141,6 |
| Kartof | 35,5 | 44,1 | 47,2 | 48,1 | 48,5 | 49,1 | 50,8 | 51,5 | 52,2 | 54,6 | 59,3 | 63,1 | 64,2 |
| Tərəvəz və bostan bitkiləri | 63,2 | 73,6 | 79,3 | 78,8 | 77,9 | 78,4 | 78,6 | 78,7 | 83,5 | 84,1 | 90,9 | 98,5 | 103,8 |
| Ət və ət məhsulları | 21,0 | 27,9 | 29,1 | 29,3 | 29,4 | 29,1 | 29,2 | 30,2 | 31,2 | 31,5 | 32,4 | 33,5 | 33,8 |
| Balıq və balıq məhsulları | 4,5 | 6,2 | 6,6 | 6,6 | 6,6 | 6,6 | 6,6 | 6,7 | 6,8 | 6,9 | 6,9 | 7,1 | 7,1 |
| Süd və süd məhsulları | 178,3 | 252,4 | 271,1 | 277,6 | 274,8 | 279,0 | 280,2 | 282,6 | 291,3 | 301,0 | 312,8 | 294,4 | 285,0 |
| Yumurta, ədəd | 117,0 | 122,0 | 123,0 | 123,9 | 125,6 | 119,7 | 122,8 | 123,8 | 127,8 | 131,4 | 141,4 | 155,0 | 155,4 |
| Meyvə, giləmeyvə | 37,3 | 53,7 | 55,4 | 54,6 | 54,5 | 55,3 | 55,5 | 57,6 | 63,0 | 65,0 | 68,5 | 74,8 | 75,2 |
| Qənd və qənnadı məmulatları | 28,7 | 27,2 | 30,7 | 30,9 | 30,8 | 30,9 | 31,0 | 31,3 | 31,4 | 31,5 | 32,0 | 31,7 | 31,5 |
| Bitki yağı və | 5,8 | 8,5 | 8,3 | 8,3 | 8,3 | 8,3 | 8,4 | 8,4 | 8,6 | 8,8 | 9,3 | 9,9 | 9,9 |

| | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| marqarin | | | | | | | | | | | | | |

Mənbə: http://www.stat.gov.az

Cədvəl 1-dən görünür ki, 2001-2013-cü illər üzrə ərzaq məhsullarının adambaşına istehlakı çörək və çörək məhsullarını çıxmaq şərtilə bütün digər məhsullar üzrə artım müşahidə olunmuşdur. Belə ki, çörək və çörək məhsullarının istehlakı 1,01 dəfə, kartof 1,81 dəfə, tərəvəz və bostan bitkiləri 1,65 dəfə, ət və ət məhsulları 1,61 dəfə, balıq və balıq məhsulları 1,57 dəfə, süd və süd məhsulları 1,59 dəfə, yumurta 1,33 dəfə, meyvə və giləmeyvə 2,01 dəfə, qənd və qənnadı məmulatları 1,09 dəfə, bitki yağı və marqarin 1,71 dəfə artmışdır.

Cədvəl 2-dən istifadə edilərək əsas ərzaq növlərinin istehsalı, idxalı və özünütəminetmə səviyyəsinin dinamikası arasında qarşılıqlı əlaqəni ifadə edən tənliklər qurulmuşdur.

Cədvəl 2

Əsas ərzaq növlərinin istehsalı, idxalı və özünütəminetmə səviyyəsinin dinamikası

| | Ət | | | Taxıl | | | Kartof | | | Tərəvəz | | | Balıq | | | Yumurta | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Istehsal | Idxal | Özünütəmin | Istehsal | Idxal | Özünütəmin | Istehsal | Idxal | Özünütəmin | Istehsal | Idxal | Özünütəmin | Istehsal | Idxal | Özünütəmin | Istehsal | Idxal | Özünütəmin |
| 2007 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 |
| 2008 | 103,8 | 94,2 | 101,0 | 123,2 | 92,8 | 116,0 | 102,5 | 50,7 | 105,7 | 98,6 | 25,1 | 105,9 | 100,0 | 143,8 | 86,1 | 113,5 | 84,3 | 100,8 |
| 2009 | 103,8 | 71,9 | 95,2 | 145,6 | 66,0 | 144,2 | 91,7 | 36,3 | 106,8 | 98,6 | 62,3 | 102,4 | 212,5 | 165,0 | 106,9 | 123,4 | 104,9 | 100,3 |
| 2010 | 107,7 | 74,3 | 99,5 | 95,6 | 94,2 | 101,9 | 88,4 | 59,0 | 102,6 | 93,0 | 122,0 | 98,8 | 212,5 | 183,1 | 105,5 | 118,9 | 119,6 | 99,8 |
| 2011 | 111,5 | 88,4 | 99,1 | 116,2 | 82,6 | 120,2 | 86,0 | 83,1 | 103,7 | 93,7 | 181,2 | 96,9 | 216,7 | 224,6 | 99,7 | 100,9 | 149,6 | 78,9 |
| 2012 | 119,2 | 60,4 | 104,2 | 130,7 | 96,8 | 118,3 | 87,6 | 74,3 | 100,2 | 93,0 | 94,9 | 100,1 | 262,5 | 240,9 | 99,3 | 120,7 | 273,8 | 98,1 |
| 2013 | 123,1 | 32,9 | 104,1 | 136,0 | 102,8 | 116,7 | 88,4 | 77,1 | 99,6 | 93,0 | 36,6 | 103,5 | 229,2 | 304,6 | 98,8 | 136,0 | 236,7 | 98,7 |

Mənbə: http://www.stat.gov.az

Ət üzrə özünütəminetmə səviyyəsinin dinamikası ət istehsalı və idxalından asılılıq tənliyi;

$$T_ə = 49{,}036 + 0{,}421Ə_{iS} + 0{,}068Ə_{iD}$$
$$R = 0{,}770; F = 2{,}916$$

Taxıl üzrə özünütəminetmə səviyyəsinin dinamikası taxıl istehsalı və idxalından asılılıq tənliyi:

$$T_T = 112{,}977 + 0{,}500T_{iS} - 0{,}625T_{iD}$$

R=0,999; F=1755,3

Kartof üzrə özünütəminetmə səviyyəsinin dinamikası kartof istehsalı və idxalından asılılıq tənliyi:

$$T_K = 102{,}217 + 0{,}084K_{iS} - 0{,}106K_{iD}$$
$$R = 0{,}819; F = 4{,}104$$

Tərəvəz üzrə özünütəminetmə səviyyəsinin dinamikası tərəvəz istehsalı və idxalından asılılıq tənliyi:

$$T_{Tr} = 98{,}935 + 0{,}072Tr_{iS} - 0{,}053Tr_{iD}$$
$$R = 0{,}969;\ F = 31{,}438$$

Yumurta üzrə özünütəminetmə səviyyəsinin dinamikası yumurta istehsalı və idxalından asılılıq tənliyi:

$$T_Y = 53{,}151 + 0{,}438Y_{iS} - 0{,}048Y_{iD}$$
$$R = 0{,}618; F = 1{,}239$$

Balıq üzrə özünütəminetmə səviyyəsinin dinamikası balıq istehsalı və idxalından asılılıq tənliyi:

$$B_ə = 91{,}627 + 0{,}131B_{iS} - 0{,}088B_{iD}$$
$$R = 0{,}777; F = 3{,}066$$

Araşdırmalar göstərir ki, ərzaq təhlükəsizliyi qlobal xarici amillərdən əhəmiyyətli dərəcədə asılıdır. Qloballaşma şəraitində bazarlardakı liberallaşmanın, ölkələrin bir-birindən qarşılıqlı asılı olması yuxarıdakı faktın real olduğunu göstərir.

## 4. Qloballaşma şəraitində ərzaq təhlükəsizliyinin dövlət tənzimlənməsində xarici ticarət əlaqələrinin yeri və rolu

Müstəqillik əldə etdikdən sonra Azərbaycanın xarici ticarət əlaqələrində əhəmiyyətli dərəcədə müsbət nəticələr əldə edilmişdir. Ölkəmizdə fəaliyyət göstərən təsərrüfat subyektlərinin fəaliyyətinin iqtisadiyyatın müasir tələblərinə uyğun qurulması və idxal-ixrac əməliyyatlarının dövlət tərəfindən tənzimlənməsi nəticəsində Azərbaycanla ticarət əməliyyatlarını aparan ölkələrin sayı və xarici mal dövriyyəsinin həcmi artmağa başlamışdır. 1991-ci illə müqayisədə 2013-ci ildə respublikamızda idxal-ixrac əməliyyatları həyata keçirən ölkələrin sayı 3 dəfədən çox, onlarla həyata keçirilən ticarət əməliyyatlarının dövriyyəsinin həcmi 8,7 dəfə, o cümlədən, idxal 5,7 dəfə, ixrac isə 11,3 dəfə artmışdır.

2000-2013-cü illər ərzində respublikanın ərzaq məhsullarının ixracı 15,8 dəfə, idxalı isə 7 dəfə artmışdır. Bu illər ərzində 10,9 milyard dollar həcmində ərzaq məhsulları idxal olunub və 5,6 milyard dollar həcmində ərzaq məhsulları ixrac olunub. Başqa sözlə 2 dəfə artıq ərzaq məhsulları idxal olunmuşdur. 2013-cü ildə 2000-ci illə müqayisədə ərzaq məhsullarının ixracı 19,2 dəfə, idxalı 5,6 dəfə artmışdır.

1996-ci ildən 2013-cü ilə qədər Azərbaycanın ərzaq məhsullarının xarici ticarət dövriyyəsində mənfi meylli saldo əyrisi müşahidə edilmişdir (Qrafik 1.) Qrafik 1-dən göründüyü kimi, 1996-cı illə müqayisədə 2000-ci ildə Azərbaycanın xarici ticarətində ərzaq məhsullarının payı mənfi saldoya düşmüşdür. Bu rəqəm ilk 10 ildə baş verdiyi üçün çox təhlükəli səciyyə daşıyırdı və bunun qarşısı sonrakı 5-10 ildə alınmasa idi, saldo əyrisi daha da "dərinləşə" bilərdi. Azərbaycanda aparılan uğurlu iqtisadi siyasət nəticəsində bunun qarşısı alınmışdır.

Beynəlxalq ticarət nəzəriyyələrinə əsasən heç bir ölkə özünü ərzaqla tam təmin edə bilməz. Müqayisəli üstünlüklər qanununa uyğun olaraq ölkə, o məhsulların istehsalı üçün səyləri artırmalıdır ki, bu məhsullarda onun səmərəliliyi, üstünlüyü daha da artsın. Ölkənin ərzaq təhlükəsizliyinin etibarlılığı və onun səviyyəsi yalnız özünü ərzaq məhsullarına olan tələbatını tam təmin etmək deyil, eyni zamanda öz ehtiyaclarının bir qismini idxalın hesabına ödəməlidir. Bu məntiqdən çıxış etsək, Azərbaycanın xarici ticarətində ərzaq məhsullarının idxalının ixraca nisbətən çox olması, ixracı artırmağı tələb edir.

Qeyd etmək lazımdır ki, idxal əvəzləyici strategiyanın da öz çatışmazlıqları mövcuddur. Əksər milli subyektlər xarici rəqabətlə qarşılaşma-

dıqda qeyri-səmərəli olurlar və ümumi nəticədə ölkənin iqtisadi artımının yüksək templər almasına əngəl yaradırlar.

İdxal əvəzləyici siyasətinin ilkin mərhələsi kimi qəbul edilən "müdafiə" tariflərinin, idxal kvotalarının və rüsumlarının tətbiqi daxili və xarici bazarlarda tənəzzül meyllərinin qarşısının alınması və onların öhdəsindən gəlmək üçün kompleks tədbirləri zəruri edir. Bu tədbirlər kompleksində ölkə əhalisinin ərzaq ehtiyaclarının "kritik həddi" mütləq müəyyənləşdirilməli və xarici bazar amillərindən sığortalanmalıdır. Dövlətin daxili bazarın qorunmasına yönəldilən tənzimləyici tədbirləri mahiyyət etibarı ilə ölkədə davamlı aqrar istehsalın formalaşdırılmasına xidmət edir. Daxili bazarın qorunmasına yönələn tədbirlər sistemi praktikada aqrar proteksionizim siyasətinin mühüm tərkib hissəsi hesab edilir. Dövlət tərəfindən aqrar sahəyə himayəçilik tədbirləri kənd təsərrüfatı və onunla qarşılıqlı əlaqədə olan sahələrdə istehsalın müdafiəsinə xidmət edir.

## 5.Dövlətin aqrar siyasətinin perspektivləri, əhali gəlirləri və qiymətlərin ərzaq təhlükəsizliyinə təsiri problemlərinin həlli yolları

Son onilliklərdə bu və ya digər ölkənin sosial-iqtisadi inkişafından, dövlət və ictimai institutların səviyyəsindən asılı olaraq aqrar siyasət

modelləri öz müxtəlifliklərilə seçilir. Dünya təcrübəsi və bu sahədə aparılan tədqiqatlarla sübut olunmuşdur ki, aqrar siyasətin effektivliyi xüsusi olaraq aqrar sektora dövlət dəstəyinin effektivliyilə bağlıdır. Bu baxımdan aqrar siyasət istənilən halda dövlət dəstəyinin müxtəlif formalarından ibarətdir və hal-hazırda dünyada aqrar siyasət fermerlərin gəlirlərinin təmin edilməsini, kənd ərazilərinin inkişafını, aqro-ekoloji mühütü özünə əsas hədəf kimi götürmüşdür.

Hər bir siyasətin, o cümlədən aqrar siyasətin effektivliyi onun hədəf və məqsədlərinin düzgün seçilməsindən əhəmiyyətli dərəcədə asılıdir. Dünya iqtisadiyyatının qloballaşması son illərdə bir çox ölkələrin aqrar siyasətinin prioritetlərindəki dəyişikliklər ölkələrin bu siyasətinin hədəflərinə ərzaq təhlükəsizliyinin daxil edilməsini qaçılmaz etmişdir.

Aqrar siyasət sahəsində ərzaq təhlükəsizliyinin təmin edilməsilə bağlı vahid strategiyanın hazırlanması ön plana çəkilməlidir. Rəqabətə davamlılıq, idxaldan asılılığın azaldılması və ixracın genişləndirilməsi, təbii resurslardan səmərəli istifadə və s. qeyd olunan startegiyanın tərkib hissələri kimi xüsusi əhəmiyyət kəsb edir və bu sahədə tədbirlər kompleksinin hazırlanmasını və reallaşdırılmasını tələb edir.

Dünya bazarında rəqabətə davamlılıq ölkə daxilində sağlam rəqabətin təmin olinmasını nəzərdə tutur. Bunun üçün dövlətin bazar iştirakçılarının fəaliyyətinə birbaşa müdaxiləsini istisna edərək hüquqi normaların riayət edilməsinə birbaşa dövlət orqanları tərəfindən nəzarəti qəbul etmək lazımdır. Bununla yanaşı idxal olunan əmtəələrin daxili bazara girişini məhdudlaşdırmaq üçün kəmiyyət kvotaları, tarif rüsumları, əmtəə istehsalçılarının subsidiyalaşması və o cümlədən qiymətlərin birbaşa tənzimlənməsi həyata keçirilməlidir.

Kənd təsərrüfatı məhsullarına, xammal və ərzaq məhsullarına qiymətlərin tənzimlənməsi həm istehsalçıların və həm də istehlakçıların maraqlarının qorunmasına yönəlməli, ərzaq məhsullarına qiymətlərin sərbəst tərəddüdlərinə müəyyən olunmuş yuxarı və aşağı hədd arasında yol verilməlidir. Bu zaman yuxarı hədd məhsul istehlakçılarının maraqlarını qoruyur, aşağı hədd isə tədarük qiymətlərinin mümkün aşağı düşmələri halında əmtəə istehsalçılarının minimal gəlirlərinin təmin olunmasına yönəlir. Qiymətlərin tənzimlənməsi onların sünü artımının qarşısını almağa, inflyasiyanın əhalinin həyat səviyyəsinə neqativ təsirinin yumşaldılmasına imkan verir. Qiymətlərin dövlət tənzimlənməsinin miqyası ölkədə konkret iqtisadi şəraitdən, qarşıya

qoyulan vəzifələrdən, istehlakın mövcud strukturundan asılıdır.

Ölkənin ərzaq təhlükəsizliyinə təsir göstərən uzunmüddətli amillərlə yanaşı qısamüddətli amillər də nəzərdən keçirilir. Bu cür amillərə bir qayda olaraq ərzaq məhsullarının qiymətlərində və əhalinin gəlirlərində müvəqqəti xarakterli dəyişmələri aid edirlər. Əgər ərzaq məhsullarının qiymətləri artarsa və əhalinin nominal pul gəlirləri qiymətlərin bu artım templərinə nisbətən geri qalarsa, o zaman əhalinin real alıcılıq qabiliyyəti aşağı düşər və nəticədə əhalinin bir qismi konkret zaman kəsiyində tam qidalanmama ilə üzləşə bilər.

Lakin respublikada aparılan uğurlu sosial-iqtisadi, o cümlədən aqrar siyasəti, əhali gəlirlərinin və qiymətlərin tənzimlənmsi siyasəti nəticəsində araşdırılan dövrdə ərzaq təhlükəsizliyinin sözü gedən qisamüddətli amilləri kimi özünü göstərə bilməmişdir. Aparılan təhlil onu bildirir ki, ərzaq məhsullarına qiymətlərin müəyyən tərəddüdlərinə baxmayaraq, onların əhalinin adambaşına düşən istehlakı artmışdı. Buna səbəb əhalinin gəlirlərinin sabit olaraq artması olmuşdur (Qrafik 2).

6. **Ərzaq təhlükəsizliyinin təmin edilməsi və aqrar sahədə iqtisadi proqnozlaşdırma**

Ərzaq təhlükəsizliyi probleminin aktuallığı və xarakteri ilk növbədə sistem modelləri əsasında onun perspektiv vəziyyətinin proqnozlaşdırılmasının qiymətləndirilməsində real və dəqiq mənbələri, məlumatları, rəqəmləri tələb edir və xarici şərtlərin dəyişməsi ssenarisinə müxtəlif səviyyələrdə baxmağa vadar etməklə dövlət siyasətinin alternativ variantların imkanlarını axtarır.

Ümumiyyətlə, aqroiqtisadi tədqiqatlarda riyazi metodların geniş istifadə olunması ABŞ-da və Qərbi Avropada "proqnozlaşdırma bumu" ilə eyni zamana təsadüf edir. II Dünya müharibəsindən sonra qərb ölkələrinin iqtisadiyyatında baş vermiş proseslər cəmiyyətin gələcək problemlərinin öyrənilməsində maraqların artmasına obyektiv şərait yaratmış oldu. 80-ci illərin əvvəllərində inkişaf etməkdə olan ölkələrin kənd təsərrüfatının proqnozlaşdırılması üçün xətti proqramlaşdırma əsasında optimal modellərdən geniş istifadə edilirdi. 90-cı illərin əvvəllərində tədqiqatların üçüncü əsas istiqaməti kimi ərzaq məhsullarına olan tələbin və qida məhsullarının qiymətlərinin proqnozlaşdırılması olmuşdur. 80-ci illərin sonunda inkişaf etməkdə olan ölkələrin ərzaq təhlükəsizliyinin həlli istiqamətində "MOİRA" modeli - H. Linneman tərəfindən "Roma Klubu"nun rəhbərliyi altında inkişaf etməkdə olan ölkələrin ərzaq problemlərinin həlli istiqamətində hazırlanmış ilk model və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının əməkdaşlarının hazırladıqları 18 milli, 2 sıx iqtisadi əməkdaşlıqda olan regionlar üçün (Aİ və Şərqi Avropa+keçmiş SSRİ) və 15 digər dövlət qrupları üçün hazırlanmış 35 modeldən ibarət "BLS"Basic Linked System (Əsas Əlaqələndirici Sistem) modeli hazırlamışlar.

Bunları nəzərə alaraq respublikada ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı 2000-2013-cü illərin göstəricilərinə əsasən bir çox kənd təsərrüfatı məhsulları üzrə 2020-ci ilə qədər proqnozlar verilmişdir

| | |
|---|---|
| Dənli və paxlalılar | $y = 24616x - 49140900$ |
| Şəkər çuğundur | $y = 464,84x - 928291$ |
| Ərzaqlıq bostan bitkiləri | $y = -0,071x^2 + 3,451x + 4,674$ |
| Tərəvəz | $y = 8296,1x - 16546900$ |
| Kartof | $y = 20394x - 40748100$ |
| Ət | $y = -109,45x2 + 5586,5x + 9467,9$ |
| Süd | $y = 4,409x^2 - 33,280x + 271,129$<br>$y = 0,134x^3 + 1400x^2 - 14,598x + 243,849$ |

| | |
|---|---|
| Yun | $y = 1171{,}2x - 2339300$ |
| Yumurta | $y = 2\ 3{,}295+0{,}255x^2+1{,}427x$<br>$y = -0{,}016x^3+0{,}606x^2-0{,}753x+26{,}477$ |
| Ümumi məhsul | $y = 342{,}7x - 684804$ |
| Bitkiçilik, ümumi məhsul | $y = 170{,}93x - 341462$ |
| Heyvandarlıq, ümumi məhsul | $y = 171{,}76x - 343342$ |
| ÜDM payı | $y = 194{,}6x - 388761$ |

Nəticə etibarı ilə proqnoz göstəriciləri "Azərbaycan 2020: gələcəyə baxış" inkişaf konsepsiyasının aqrar sahənin inkişaf prioritetlərinə uyğun gəlir.

Tədqiqat prosesinin yekununu aşağıdakı kimi ümumiləşdirmək olar:

– ərzaq təhlükəsizliyi dövlətin iqtisadi təhlükəsizliyinin mühüm tərkib hissəsidir. İqtisadi təhlükəsizlik probleminin həllində əsas məsələlərdən biri milli mənafelərin düzgün müəyyənləşdirilməsidir. İqtisadi təhlükəsizlik problemini kəskinləşdirən əsas məsələ iqtisadi asılılığın mümkün sərhədlərinin müəyyənləşdirilməməsidir. İqtisadi asılılıq milli mənafelərin təminatına mənfi təsir göstərir. Qloballaşma şəraitində ölkələr üçün bu hal daha böyük əhəmiyyət kəsb edir;

– dövlətin ərzaq təhlükəsizliyinin əsasını ölkədə taxıl ehtiyatları, növbəti məhsul yığımına qədər onun saxlanılması və əhalinin adambaşına düşən taxıl istehsalı hesab edilir. Dünya təcrübəsində o ölkənin ehtiyatı təhlükəsiz hesab edilir ki, ölkə əhalisinin illik istehlakının 17-20 %-i həcmində taxıl ehtiyatı olsun, yəni taxıl ehtiyatı illik istehlakdan əlavə ölkə əhalisinin 2 ay müddətinə taxıla olan tələbatını təmin etməyə imkanı versin. Fikrimizcə, müharibə təhlükəsində olan respublikamızda taxıl ehtiyatlarının təhlükəsizlik normasından daha yüksək həcmdə müəyyənləşdirilməsi məqsədəuyğun olardı;

– ölkə əhalisinin istehlakının təmin edilməsi kənd təsərrüfatı istehsalından bilavasitə asılıdır. Müasir şəraitdə ərzaq təhlükəsizliyinin təmin edilməsi ölkədə həyata keçirilən aqrar siyasətin prioritet istiqamətlərindən biri olmalıdır;

– daxili bazarın qorunmasına yönəlmiş tənzimlənmə tədbirlərinin əsas məqsədi ölkənin ərzaq məhsullarına olan tələbatının əsasən yerli

istehsal hesabına ödənilməsindən, kənd təsərrüfatı istehsalının həcminin artırılmasından və ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsindən ibarətdir.

– ölkənin ərzaq mallarının ixrac etməsi imkanları çoxdur və mərhələli ixrac strategiyasının hazırlanması tələb olunur. Bu mənada Azərbaycanın kənd təsərrüfatı məhsullarının ixracının strateji istiqamətlərinidən biri kimi MDB ölkələrinin daxili bazarlarına çıxış və ixracyönlü kənd təsərrüfatı məhsullarının rəqabət qabiliyyətliyini artırmaqla Avropa bazarına çıxışın təmin olunması;

– yaxın perspektivdə ölkənin ərzaq təhlükəsizliyinin təmin olunması üçün ölkənin sosial-iqtisadi inkişafının sürətlənməsinə; ərzaq təchizatının dayanıqlılığı və etibarliliğının təmin edilməsinə; əhalinin alıcılıq qabiliyyətinin yüksəldilməsinə; sahibkarların xarici rəqabətdən qorunmasna; aqrar sferaya dövlət dəstəyinin gücləndirilməsinə; idxaləvəzləyici siyasət və onun ümummilli iqtisadi inkişaf strategiyası ilə əlaqələndirilməsinə xüsusi diqqət yetirilməlidir;

– mövcud problemlərin aradan qaldırılması məqsədi ilə zəruri tədbirlərdən biri hüquqi bazanın təkmilləşdirilməsidir. Başqa sözlə, hüquqi bazanın təkmilləşdirilməsi ərzaq məhsullarının təhlükəsizliyi və keyfiyyətinə nəzarət; ərzaq məhsullarının tədavülünün dövlət tərəfindən məqsədyönlü şəkildə tənzimlənməsi; ərzaq təhlükəsizliyinin təmin edilməsi sahəsində hökumət idarələrinin funksiyaları və vəzifələrinin əlaqələndirilməsi; ərzaq məhsullarının təhlükəsizliyi və keyfiyyətinin beynəlxalq standartlara uyğunlaşdırılması; ərzaq təhlükəsizliyi və əhalinin sağlamlılığı sahəsində keçirilən monitorinq və s. istiqamətlərdə kompleks şəkildə özündə ehtiva etməlidir;

– ümumiyyətlə, ərzaq təhlükəsizliyi ölkənin ərzaqla təmin olunması, xüsusi ilə onun müxtəlif təbəqələri nöqteyi-nəzərdən tamamilə birtərəfli qiymətləndirilir. Bu problem məhz Azərbaycanın timsalında daxili istehsalın səviyyəsi, strukturu və dayanıqlılığını; kənd təsərrüfatının ixrac potensialı və onun ölkənin özünü ərzaqla təmin olunması ilə əlaqələndirilməsini; daxili ərzaq istehsalının həcmi və strukturunu; dünya bazar konyukturasının perspektivləri və onların tərəddüdlərinin dəyərləndirilməsini özündə birləşdirməlidir.

**Dissertasiya işinin əsas nəzəri müddəaları aşağıdakı elmi məqalələrdə və elmi praktiki konfransların tezislərində öz əksini tapmışdır:**

1. Ş.N.Yusifzadə.“Ərzaq təhlükəsizliyinin qlobal aspektləri”. “İqtisad elmləri: Nəzəriyyə və praktika” jurnalı. Az.DİU, Bakı, 2002, № 3-4, səh 79-82

2. Ş.N.Yusifzadə.“Keçid dövrü şəraitində iqtisadi təhlükəsizlik strategiyasının formalaşdırılması problemləri”. “İqtisad elmləri: Nəzəriyyə və praktika” jurnalı. Az.DİU, Bakı, 2003, № 1-2, səh 86-89

3. Ş.N.Yusifzadə.“Ərzaq təhlükəsizliyi sisteminin formalaşması zəruriliyi”. 2002-ci ildə Az.DİU-nun büdcə təyinatlı elmi-tədqiqat işlərinin yekununa həsr edilmiş elmi-praktiki konfransın tezisləri, Bakı, 2003, səh 52.

4. Ş.N.Yusifzadə.“Milli ərzaq təhlükəsizliyinin bəzi məsələləri”. Aspirantların və gənc tədqiqatçıların IX respublika elmi konfransın tezisləri, Bakı, 2003.,səh58

5. Юсифзаде Ш.Н.“Факторный анализ продовольственной безопасности в Азербайджане”. Экономика, социология и право. Журнал научных публикаций №12, декабрь 2010. Москва 2010 “Наука+”, стр. 39

6. Юсифзаде Ш.Н. “Роль внешних факторов в решении продовольственной проблемы в Азербайджане”. Актуальные вопросы современной науки. Материалы XI Международной научно-практической конференции (30 апреля 2011 г.) Москва 2011, стр. 319

7. Ş.N.Yusifzadə.“Azərbaycanda ərzaq təhlükəsizliyinin müasir vəziyyəti”. Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu, Elmi əsərlər, II buraxılış, Bakı 2011, səh.271.

8. Юсифзаде Ш.Н.“Современное состояние АПК в республике Азербайджан и основные приоритеты его развития в последующие годы”. Материалы VIII международной научно-техческой конференции “Техника и технология пищевых производств”, Могилев, 2011 стр. 77

9. Ş.N.Yusifzadə.“Ölkənin ərzaq təhlükəsizliyini təmin edən amillər”. “Ərzaq təhlükəsizliyinin təmin edilməsinin sosial-iqtisadi problemləri” mövzusunda beynəlxalq elmi-praktiki konfransın material və tezisləri Bakı 2011, “Avrora” nəşriyyatı, səh.335-337

10.Ş.N.Yusifzadə, M.M.İsgəndərova. “Ərzaq təhlükəsizliyi sferasında xarici ticarət əlaqələrinin yeri və rolu”. 2011-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetində yerinə yetirilmiş büdcə təyinatlı elmi-tədqiqat işlərinin yekunlarına həsr edilmiş elmi-praktiki konfransın tezisləri, Bakı, “İqtisad universiteti nəşriyyatı”, 2012, s.410

11.Ş.N.Yusifzadə.“Ərzaq təhlükəsizliyi və inteqrasiya prosesinin inkişaf tendensiyaları”. Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu, Elmi əsərlər, IV buraxılış, Bakı 2011.səh.100-103

12.Юсифзаде Ш.Н. Вопросы повышение роливнешне-торговых связей в обеспечении продовольственной безопасности в Азербайджане. Экономика и Предпринимательство. Журнал научных публикаций №1, январь 2013, стр 27.

13.Ş.N.Yusifzadə. “Dünya ərzaq təhlükəsizliyi fonunda Azərbaycanda ərzaqla özünütəminetmə səviyyəsi” Azərbaycan Dövlət Aqrar Universitetinin 85 illiyinə həsr edilmiş “Müasir aqrar elm: Qloballaşma şəraitində əsrin aktual problemləri və inkişaf perspektivləri” adlı Beynəlxalq Elmi-Praktik Konfransının materialları. Gəncə 27-29 sentyabr 2014-cü il.səh.340-342

14.Ş.N.Yusifzadə. “ Milli ərzaq təhlükəsizliyi probleminin həllinin əhəmiyyətliliyi”. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 92-ci il dönümünə həsr edilmiş Gənc Tədqiqatçıların Beynəlxalq Elmi Konfransının materialları 17-18 Aprel 2015-ci il, Bakı, Azərbaycan- I KİTAB, səh.541

15.Юсифзаде Ш.Н., Бахтиярова С.Г. «Усовершенствование стандартов продовольственной безопасности для расширения возможностей азербайджанских предприятий в сфере АПК». 81 Международная научная конференция молодых учёных, аспирантов и студентов - «Научные достижения молодёжи в решении проблем питания человечества в XXI веке». Киев, 23-24 апрель, 2015, часть 3, стр.220

**Юсифзаде Шахла Натик kызы**

# РЕЗЮМЕ

## Проблемы государственного регулирования продовольственной безопасности

В современном периоде продовольственная безопасность, нося глобальный характер, формируется под вилянием различных социальных, экономических, политических, технологических, биологических, географических, исторических, этнических факторов, а также и факторов, имеющих нравственные корни.

Проблема продовольственной безопасности всегда стояла в центре внимания мировой науки, международных организаций и государственных органов. Потому что продовольственная безопасность, являясь составной частью национальной безопасности каждого государства, создает социально-экономические возможности для обеспечения стабильности в стране, проведения в жизнь экономических мер и для решения других вопросов.

Произошедший в последнее время в мире экономический кризис стал причиной повышения цен продовольственных продуктов, а в некоторых странах уже привел к нехватке продовольствия. Несмотря на то, что в Азербайджане нет проблемы с общей нехваткой продовольствия, существующее положение требует максимального уменьшения зависимости внутреннего рынка от импорта и создания продовольственных запасов. С этой точки зрения исследование вопросов проведения в жизнь государственного регулирования продовольственной безопасности выделяется своей актуальностью.

Во введении диссертации дается общая характеристика работы, обоснована актуальность темы, определены степень изученности проблемы и основные цели, цели исследования, определены предмет и объект исследования. В этой части указаны научная новизна исследования, его научное и практическое значение.

В первой главе диссертационной работы, называющейся «Теоретически- методологические основы системы продовольственной безопасности», исследована роль экономической и продовольственной безопасности, сущность, значение и роль специфических особенностей как составной части национальной безопасности, изучены различные концептуальные подходы по ее созданию и развитию, проведен сравнительный анализ теоретических взглядов на проблемы продовольственной безопасности, исследованы научно-теоретические вопросы и их закономерности, прокомментированы глобальные аспекты, характер продовольственной безопасности в современных условиях и показано авторское отношение к ним.

Во второй главе диссертационной работы, посвященной «Комплексному исследованию государственного регулирования продовольственной безопасности в Азербайджане», исследованы и оценены факторы формирования системы продовольственной безопасности в современном периоде, изучены ее основные приметы, анализировано положение самообеспечения страны в продовольственном секторе, построены уравнения регрессии, отражающие самообеспечение по отдельным видам продовольствия, изучены роль, место, сущность внешних торговых связей в государственном регулировании, изучены области влияния, его социально-экономическая необходимость.

Третья глава диссертационной работы называется «Направления совершенствования государственного регулирования продовольственной безопасности» и в этой главе показаны перспективы обеспечения в современном периоде государственной аграрной политики и обеспечения продовольственной безопасности, пути его совершенствования и направления развития, исследованы пути решения проблемы влияния доходов населения и цен на продовольственную безопасность, даны прогнозы производства продовольствия в стране.

**Yusifzadeh Shahla Natig**

**S U M M A R Y**

## State Regulation Problems of Food Safety

In modern times, the food safety is formalized under the various social, economical, political, technological, biological, historical, ethnic factors having spiritual roots by bearing the global nature. In this sense, its fully and complete studying under the responsibility of some science field.

The food safety problem has always been under the focus of world scientists, organizations and state authorities. Because, the food safety creates socio-economic opportunities for provision of stability in country, implementation of the economical measures and solution of other issues by being an integral part of national security of each country.

The economic crisis happened in the word lately caused the growth in the price of food products, led to lack of food in some countries. Although there are no any problems in relation with general lack of food in Azerbaijan, the existing situation demand maximum reduction of internal market from import and creation of food necessity. In this point of view the study of issues on implementation of state regulation of food safety with certain correction differ with its urgency.

In introduction of this dissertation the general feature of case has been given, the urgency of the topic grounded, the level of study of the problem and the main object of study, duties determined, subject and object of the case selected. In this part scientific innovation, theoretical and practical importance of the study has been indicated.

In the first chapter of this dissertation "Theoretical and methodological grounds of Food Safety System" in terms of economical food safety its essence, content and specific features has been studied as an integral part of national security, different conceptual approaches on their creation and development considered, comparative analysis of theoretical views in relation with food safety problem, in modern conditions global aspects of food safety, feature has been commented and the attitude of the author has been noted to various scientific- conceptual view by approaching systematically.

In the second chapter of this dissertation dedicated to " Complex Study of State Regulation of food safety in Azerbaijan" the creation factors of food safety system and evaluated, its main indications have been viewed, self-sufficiency status analyzed in food sector of the country, set up mathematical-economical equations reflected self-sufficiency on separate food types, the place, content and rule of foreign trade relations in state regulation of food safety has been studied in modern globalization period, sphere of influence studied, its socio-economical importance has been grounded.

The third chapter of study called as" The improvement directions of state regulation of food safety" and in this chapter the agrarian policy of the state in modern period and perspectives of provision of food safety, its improvement ways and development trends have been indicated, income of the population and solution ways of reflection of trade barriers to food safety studied, in addition to methodical-practical aspects of that food safety, agro-economical prediction and by using from linear, squared and cube equations has been indicated the development prediction of agriculture in the Republic.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ**
**ЭКОНОМИЧЕСКИЙ УНИВЕРСИТЕТ**

На правах рукописи

**ЮСИФЗАДЕ ШАХЛА НАТИК КЫЗЫ**

# ПРОБЛЕМЫ ГОСУДАРСТВЕННОГО РЕГУЛИРОВАНИЯ ПРОДОВОЛЬСТВЕННОЙ БЕЗОПАСНОСТИ

**Специальность:** 5308.01. - «Общая экономика»

**А В Т О Р Е Ф Е Р А Т**

Диссертации на соискание научной степени
доктора философии по экономике

**Баку – 2015**

*Kağız formatı 60x84 1/16.*
*Cəmi1,5ч.v. Sayı120.*

---

*" İqtisad Universiteti" Nəşriyyatı*
*A3 1001, Bakı, İstiqlaliyyət küçəsi, 6.*